*Xəzər dənizinin Bakı sahilində Bibi Heybət məscidi və neft buruqları*

*Mənbə: Röyter/Qriqori Dukor*

# Durğunluğun qiyməti:

## Dağlıq Qarabağ münaqişəsinin iqtisadi aspektləri


### Fil Şampeyn

Fil Şampeyn "Beynəlxalq Həyəcan" təşkilatının "Biznes və Münaqişə" proqramının direktorudur. Münaqişə tərəfləri arasında dialoqun koordinatoru qismində Qafqaz, Liberiya, Nepal və Şri Lankada işləmişdir. Münaqişələrin nizamlanması prosesinin iqtisadi tərəfləri haqqında çoxsaylı məqalələrin müəllifidir.


Ermənistanla Azərbaycan arasında hərbi qarşıdurmanı "nə sülh, nə savaş" vəziyyəti ilə əvəzləyən 1994-cü ildən bəri münaqişə tərəfləri çoxşaxəli iqtisadi perspektivlərlə üzləşdilər. Neftin satışından gələn gəlirlər Azərbaycanın dövlət xəzinəsini kiçik elitanın ciblərini doldursa da, əhalinin əksəriyyətinin iqtisadi vəziyyəti ağır qalmaqda davam edir. Ermənistanın hərbi qələbəsinin psixoloji dividentləri iqtisadi imkanların yoxluğu fonunda solğun görünür, Rusiya və Qərbə olan iqtisadi miqrasiya isə müxtəlif hesablamalara görə əhalinin sayını iki dəfə azaldıb. Qarabağ öz yüksək işsizlik səviyyəsindən əziyyət çəkir və xarici yardımlardan, xüsusilə erməni diasporunun yardımı və Ermənistanın verdiyi "dövlətlərarası" kreditlərdən getdikcə daha böyük asılılığa düşür. Belə təsəvvür yaranır ki, bu vəziyyətdə qalib çıxan yalnız elitadır.

## Rəmzi və maddi ehtiyatların tarazlığı

Ümumiyyətlə, tərəflər münaqişənin iqtisadi qiymətini özlərinə təsəvvür etmirlər, mümkün "sülh dividentinin" isə hər hansı tərəfin apardığı siyasətində dəyişikliklərə səbəb olmadı. Rəqiblərinə qarşı diplomatik mübarizədə tərəflər hansı vasitələrdən istifadə edə bilərlər? Azərbaycanın sərəncamında neft var, bu amil əlbəttə ki, diplomatik dinamikanın tərkib hissəsidir. Həm ordunun hərbi hazırlığının qaldırılması haqqında bəyanatları qüvvətləndirmək, həm də beynəlxalq toplumun dəstəyini qazanmaq üçün neft gəlirlərinin artması daim nəzərə çarpdırılır. "Beynəlxalq Həyəcan" təşkilatının Azərbaycan əyalətlərində keçirdiyi rəy sorğusuna görə, bu bölgələrin əhalisi hesab edir ki, Ermənistanın işğal etdiyi ərazilərin qaytarılmasında neftin rolu həlledicidir. Əyalət əhli arasında belə rəy formalaşıb ki, neft ordunun saxlanması üçün ölkəyə gətirdiyi vəsaitlə bərabər şirkətləri Azərbaycan neftinin hasilatı ilə məşğul olan dövlətlərin dəstəyini də təmin edir. Bütün bu səylər iqtisadi durumu yaxşılaşdırmaq və bundan əlavə, Qarabağı Azərbaycana qaytarmaq məqsədi daşıyır. Bu uzaq bölgələrdə onsuz da geniş yayılmış ermənilərin düşmən olması stereotipini bərkitmək istəyənlər də bu məntiqi qəbul ediblər.

Azərbaycanın ehtiyatları olsa da, hərbi qələbəyə nail ola bilməyib, Ermənistanın isə hərbi qələbəsi var, lakin ehtiyatları yoxdur. Lakin Ermənistanın da elə iş adamları var ki, bizneslərarası qeyri-formal əməkdaşlıq etməklə Türkiyə ilə əlaqələr yaratmağa çalışırlar. Həqiqətən də, zəfəri



möhkəmləndirmək üçün erməni iş adamları Azərbaycanla ziddiyyətlərin aradan qaldırılması əvəzinə Türkiyə ilə əlaqələri gücləndirməyə üstünlük verirlər. Lakin Türkiyə tərəfi ilə də münasibətlər heç də ideal deyil. Baxmayaraq ki, Türkiyə ilə Ermənistan arasında hava xətləri mövcuddur və beləliklə Ermənistan-Türkiyə sərhədlərindən insanların gediş-gəlişi var, bu iki ölkənin fiziki sərhədləri qapalı qalmaqda davam edir. Bir tərəfdən Osmanlı İmperiyasında ermənilərlə bağlı 1915-ci il hadisələrinə verilən qiymətin mübahisəli olması, digər tərəfdən isə Türkiyənin Qarabağ münaqişəsi məsələsində türkdilli qonşusu Azərbaycanla bir mövqe tutması belə vəziyyətin yaranmasına səbəb olmuşdur. Azərbaycan və Türkiyənin tərəfdaşlığı Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin inşası ilə daha da möhkəmləndi. Qeyd etmək lazımdır ki, bu layihə Azərbaycan, Gürcüstan və Türkiyəni bir strateji sıraya düzür və beləliklə, regionda qarşıdurma xəttini dərinləşdirir.

## Neft: sülh, yoxsa müharibə ehtiyatı?

Neftin Cənubi Qafqazda oynadığı iqtisadi vasitə rolunu və münaqişənin dinamikasının elementi kimi əhəmiyyətini araşdırmağa dəyər. Bir tərəfdən, neft amilinin Azərbaycanda daxili vəziyyətə göstərdiyi təsirini Standford Universitetinin alimi Terri Lin Karlın və digər tədqiqatçıların təklif etdiyi təsnifata daxil etmək olar. Bu təsir kifayət qədər ümumi xarakter daşıyır, çünki Anqola, Kolumbiya və Nigeriya kimi ölkələrdə, və həmçinin Böyük Britaniya və Norveç kimi neft hasil edən Qərb dövlətlərində müşahidə olunur. Xüsusilə, neft satışından gələn yüksək gəlirlər adətən hasilatçı ölkələrin valyutasının güclənməsinə səbəb olur və bu ölkələrin ixracının rəqabət potensialına mənfi təsir göstərir ("Holland sindromu"). "Caspian Revenue Watch" təşkilatına əsasən, neftin bir barelinin qiymətini $25 götürdükdə, 2003-2010 illər arasında "Azəri", "Çıraq" və dərin "Günəşli" yataqlarının işlənməsindən gələn gəlirdən Azərbaycan hökumətinin payı 16 milyard dollar, qiymət $18 bərabər olarsa, 7,2 milyard dollar təşkil edəcək. Bu şəraitdə keçmişdə Azərbaycanın kənd təsərrüfatı məhsullarının ən iri idxalçısı olan Rusiyaya bu məhsulları yenidən ixrac etmək üçün Azərbaycanın aqrar sektorunun kifayət qədər inkişafını təsəvvür etmək çətindir.

Neft gəlirləri rüşvət üçün şərait yaratmaqla korrupsiya şəbəkələrini möhkəmləndirir. Neft hasilatının təkan verdiyi inkişaf və maddi nemətlərin əldə edilməsinə açdığı imkanlar bir qayda olaraq elitanın vəziyyətinin bərkidilməsinə xidmət edirlər. Bu şəraitdə elita öz hakimiyyəti və var-dövlətlərinin mənbəyi olan tutduğu vəzifə və statuslarını hər bir yolla saxlamağa can atır. Əgər korrupsiyaya qarşı mübarizə ilə yanaşı neft gəlirlərinə ictmai nəzarət həyata keçirən yerli qeyri-hökumət təşkilatlarının (QHT) təsiri tədricən artırılarsa və "Hasilat Sənayesinin Şəffaflığı

Təşəbbüsü" (EİTİ) kimi şəffaflıq təşəbbüslərinə beynəlxalq ictimaiyyətin dəstəyi təmin edilərsə, neft üzərində qurulmuş iqtisadiyyatı səmərəli idarə etmək qabiliyyətində olan daha şəffaf dövlət strukturlarını təşkil etməyə Azərbaycanın hələ şansı var. Eyni zamanda, əgər gələcəkdə seçkilər praktikası keçmişin tayfa siyasətini gücləndirərsə, Azərbaycanın işgüzar mühitində bu gün müşahidə edilən bütün problemlər həll edilməmiş qalacaq. Bunların arasında himayədarlıq və favoritizm siyasəti, iqtisadiyyatın digər sahələrinə tam etinasızlıq, və Azərbaycanın EİTİ mexanizminə daxil olduğuna baxmayaraq, neft gəlirlərinin sərfiyyatına nəzarət və monitorinq sahəsində yerli QHT-lərin potensialının artırılmasında yardımın olmamasını qeyd etmək olar. Paytaxtdan kənarda yaşayan əhali yoxsulluq şəraitində qaldığından onun narazılığı artacaq və savaşpərəst təbliğatın aramsız yayımı vəziyyətində bu etirazlar əsasən Ermənistana qarşı yönələcək. Belə vəziyyətdə bu insanların şüurunda neft iqtisadi problemləri və Dağlıq Qarabağın qaytarılması məsələsini həll edə bilən vasitəyə, və deməli, hərbi silaha və ya resursa çevriləcək.

Digər tərəfdən, əgər neftdən gələn vəsait rəsmi iqtisadiyyat sistemində qalıb qeyri-neft sektorlarının güclənməsinə yönələcəksə, bunun faydası yalnız Bakıda rahat yaşayanlara olmayacaq. Əgər beynəlxalq müstəvidə hadisələrin müsbət inkişafı ilə yanaşı bu baş verərsə, Azərbaycan üçün sülh münaqişədən daha əhəmiyyətli siyasi və iqtisadi stimula çevrilə bilər. Bu vəziyyətdə EİTİ sistemi qüvvətlənər və Azərbaycan Cənubi Qafqazda daha da tutarlı regional iqtisadi inkişaf mərkəzi rolunu oynayar.

## Qeyri-rəsmi ticarət və qeyri-formal ixtiyar sahibləri

Regionun iqtisadi dinamikası həmçinin blokada və təmas xətləri ilə səciyyələnir. Ermənistan-Türkiyə və Ermənistan-Azərbaycan quru sərhədləri bağlıdır, regionun şimalında Gürcüstanla Abxaziya və Cənubi Osetiya arasında vəziyyət eynidir. Bu cür vəziyyət münaqişənin eyni zamanda həm nəticəsi, həm də mənbəyi olan müəyyən iqtisadi dinamikanı meydana gətirmişdir. Həqiqətdə bu blokadalar heç də monolit deyil və tənzimlənməyən sərhədyanı ticarətin əmələ gəlməsinə şərait yaradır, halbuki beynəlxalq səviyyədə qəbul edilmiş prinsiplər beynəlxalq iqtisadi iştirakçılara Dağlıq Qarabağ kimi tanınmamış qurumlara iqtisadi yardım göstərməyə icazə vermir.

Bu şərtlərin ziddinə yaradılmış ticarət əlaqələri işgüzar fəaliyyətin qaçılmazlığına dəlalət edir. Ticarət cəmiyyətin həyatında həlledici rol oynayır, onun məşğulluq və gəlir mənbəyidir. Hər hansı formada həyata keçirilən ticarətsiz cəmiyyət yaşaya bilməz. Tarixən Ermənistanla Azərbaycan arasında dinamik və hərtərəfli ticarət gedirdi. Sərhədlərin rəsmən bağlanması ticarətin böyük hissəsinə son qoydu, lakin tam kəsilməsi ilə nəticələnmədi. Ermənistanın "ArkNyus" informasiya agentliyinin hesablamalarına görə, 2002-ci ildə Azərbaycanla Ermənistan arasında qeyri-rəsmi ticarət dövriyyəsi 40 milyon dollar, Ermənistanla Türkiyə arasında isə 60-80 milyon dollar təşkil etmişdir. Ermənistan məhsulları Azərbaycana, və əksinə, Azərbaycan malları Ermənistana ticarət ortağı rolunu oynayan Gürcüstan və İran vasitəsi ilə gəlir.

Heç bir tənzimləmə mexanizmi olmadığından bu qeyri-rəsmi ticarət Ermənistan və Azərbaycan hökumətləri, və həmçinin bu ölkələrin vətəndaşları arasında vergi və maliyyə münasibətlərinə öz təsirini göstərir. Səmərəli idarəçilik və demokratiya anlayışlarına görə, xalq tərəfindən və xalq yolunda seçilmiş hökumət öz vətəndaşlarından vergi yığmaq üçün lazımi legitimliyə malik olmalıdır. Bu yolla toplanmış vəsait cəmiyyətin normal fəaliyyəti üçün zəruri olan xidmətləri ödəməlidir. Ticarət sahəsində dövlət tənzimlənməsi olmadığından vergilər yığılmır və demokratik əsaslarla göstərilən dövlət xidmətləri əvəzinə "korrupsiya şəbəkəsi" adlanan mexanizm bu xidmətləri sistemsiz şəkildə təmin edir və himayədarlıqla məşğul olur. Konkret danışsaq, bu termin eyni səviyyədə səlahiyyət və fərasətə malik olan insanlar arasında sərhədyanı əlaqələri nəzərdə tutur. Adətən bu rolda yerli hakimiyyət orqanları və xüsusi hüquq mühafizə orqanları, məsələn, polis, sərhəd qoşunları və gömrük əməkdaşları çıxış edirlər. Bu cür əlaqələr qanuni malların satışı üçün alternativ imkanlarla yanaşı qanundankənar əməllər üçün də zəmin yaradır. Silah və narkotik alveri kimi cinayət əməlləri müəyyən dərəcədə Cənubi Qafqazın suveren dövlətlərinin və tanınmamış respublikalarının dövlət sektorlarında mövcud olan korrupsiya şəbəkələrinin köməyi ilə törədilir.

## Tənzimlənməyən sabitlik

Sadaxlı bazarı bu dinamikanın aydın təcəssümüdür. Münaqişə nəticəsində yaranan bu bazarda Ermənistana müxtəlif məhsullarla bərabər un, kəpək və duz satılır, Azərbaycana isə Ermənistanın quru balığı göndərilir. Gürcüstan, Ermənistan və Azərbaycan sərhədlərinin kəsişdiyi yerdə Gürcüstanın ərazisində yerləşən bu bazar yeganə yer idi ki, hətta 1991-92-ci illərdə münaqişə tərəfləri arasında sərhədyanı ticarət dayanmırdı. Münaqişənin inkişaf dinamikasının bu bazara olan təsiri buradakı tacirlərin erməni-türk sərhədinin açılması ilə bağlı narahatlığında büruzə verir. Əgər sərhədlər açılarsa, yeni yaranan rəqabət bazarın bağlanmasına gətirib çıxara bilər. Sadaxlıdan asılı olan alverçilər dövlət institutlarının səmərəsizliyi fonunda onun təmsil etdiyi sabitliyi

yüksək dəyərləndirirlər. Bu sabitlik üçün ödənilən qiymət "nə sülh, nə savaş" vəziyyətini saxlayan tənzimlənməyən sistemdir. Vəziyyətin davamlı sülhlə əvəzlənməsi üçün özəl sektor və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq edən ədalətli, səmərəli və şəffaf dövlət strukturlarının yaradılması istiqamətində səyləri cəmləşdirmək lazımdır. Bəs özəl sektorun bu keçid prosesinə töhfəsi nədən ibarətdir?

## Özəl sektorun rolu

Əlbəttə ki, bu prosesə silah, narkotik maddələr və insan alveri ilə məşğul olanların əvəzinə qanuni biznes dairələrini cəlb etmək üçün potensial var. 2004-cü ilin dekabrında "Beynəlxalq Həyəcanın" Trabzonda təşkil etdiyi Cənubi Qafqazın müxtəlif bölgələrindən olan iş adamlarının görüşü sübut etdi ki, Qafqazda mütərəqqi işgüzar cəmiyyət mövcuddur. Bu işgüzar təbəqə status-kvonun onların mənafelərinə vurduğu ziyanı yaxşı görür və "biznes fəaliyyətinin qanunvericilik əsaslarını təkmilləşdirmək, biznes və dövlət arasında dialoqu canlandırmaq və biznesin fəaliyyət sahəsini milli səviyyədən regional səviyyəsinə qaldırmaq" niyyətindədir. Bu tipli regional görüşlər azərbaycanlı və erməni iş adamları və sahibkarları arasında əlaqələrin yaradılmasına kömək edən vasitələrdən biridir. Lakin siyasi müstəvidə dəyişikliklər olmadan hər hansı birgə biznes layihələrini təsəvvür etmək çətindir. Buna görə də biznesin rolu birinci növbədə sərhədyanı iqtisadi əməkdaşlığa siyasi dəstək vermək ideyasının anlatılmasından, ikincisi isə bu imkanı həyata keçirmək üçün siyasi şərait yaranarkən fəal addımlar atmaqdan ibarətdir.

## Regional yanaşmanın vacibliyi

Biznes dairələri üçün belə rolları müəyyən etməklə, sülhməramlı təşkilatlar iş adamlarını münaqişəni nəzərə alan biznes-layihələrin işlənib hazırlanmasına yönəldə bilər, çünki biznesin həmişə sülh uğrunda işləyəcəyini fərz etmək səhv olardı. Bundan əlavə, regional səviyyədə aparılan iqtisadi əməkdaşlıq xeyli dividentlər gətirə bilər. Burada işlənən "regional" termini ən geniş mənada verilir və Abxaziya, Cənubi Osetiya və Dağlıq Qarabağın iştirakı ilə Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyə arasında mümkün əlaqələri nəzərdə tutur. İdealda, bu regional vektora Rusiya və İran da daxil olmalıdır. Cənubi Qafqazda dəmir yol xətləri haqqında gedən debatlar regional perspektivin vacibliyinə işarə edirlər. Bəziləri Azərbaycandan Ermənistana Dağlıq Qarabağdan keçən Bakı-Naxçıvan-Yerevan-Gümri-Kars xəttini dəstəkləyir, digərləri isə Dağlıq Qarabağdan yan keçən Bakı-İcevan-Yerevan-Naxçıvan marşrutunu müdafiə edirlər. Bununla yanaşı Gürcüstan fəal şəkildə Tbilisi-Kars dəmir yol layihəsini irəlilətməyə çalışır. Əgər bu layihə baş tutarsa, Azərbaycan Gürcüstan vasitəsi ilə Türkiyəyə birləşəcək, Ermənistan isə layihədən kənarda qalacaq. İqtisadi və siyasi maraqlar ayrılmazdır, buna görə də həm Ermənistan, həm də Azərbaycan üçün məqbul kompromislər tapmaq üçün müəyyən regional əməkdaşlıq variantı lazımdır.

Bakıda fəaliyyət göstərən neft şirkətləri belə regional yanaşmanı öz nüfuzu ilə dəstəkləməyə tələsmirlər, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin marşrutu isə Ermənistanı kənarda qoyub. Beləliklə, Şərq-Qərb oxunun təcəssümü olan Azərbaycan, Gürcüstan və Türkiyə arasında ittifaq güclənməkdədir. Eyni zamanda, Avropa Birliyinin yeni Qonşuluq Siyasəti bütün tərəfləri daxil edən iqtisadi əməkdaşlıq potensialına malikdir. Türkiyənin Avropa Birliyinə daxil olması perspektivini nəzərə alaraq, Avropa Birliyi Ermənistan və Azərbaycan arasında şəffaf və tənzimlənən iqtisadi əlaqələrin yaradılması üçün 1990-cı ilə qədər Sovet İttifaqı çərçivəsində mövcud olan sistem əvəzinə müvafiq iqtisadi mexanizmi təklif etməyə qadirdir.

## Gələcəyə nəzər salaraq

Bu məqalənin məqsədi Qarabağ münaqişəsinin bəzi iqtisadi aspektlərinin ümumi cizgilərini təsvir etmək idi. Münaqişə tərəfləri şəffaf və tənzimlənən ticarətlə məşğul olmaq imkanından məhrumdurlar, münaqişə isə, əhalinin əksəriyyəti üçün bazar iqtisadiyyatına keçidin iqtisadi üstünlükləri sual altına qoyub. Rəsmi biznesi əvəzləmiş nizamsız sərhədyanı ticarət qanuni mexanizmlərin olmadığından tənzimlənməyən şəbəkələr vasitəsi ilə həyata keçirilir. Bu şəbəkələr həm korrupsiyanı yedizdirir, həm də özləri korrupsiyadan dolanırlar. Belə şəraitdə "nə sülh, nə savaş" vəziyyəti qalmaqda davam edəcək və davamlı sülhün bərqərar olması üçün yeni perspektivlərin meydana çıxmasına imkan verməyəcək. Yerli biznes-arası əlaqələr şəbəkələri bu vəziyyətin dəyişməsinə kömək edə bilərlər, bunun üçün onlar sülhməramlı təşkilatlarla tərəfdaş münasibətləri qurub Ermənistan, Azərbaycan və Qarabağ iş adamları arasında yeni əlaqələrin yaranmasını nəzərdə tutan regional yanaşmaya dəstək verməlidirlər. Yeni iqtisadi əməkdaşlıq mexanizmlərin yaradılması üçün Avropa Birliyinin yeni Qonşuluq Siyasətinin də böyük potensialı var. Bununla belə münaqişə tərəfləri öz iqtisadi ehtiyatlarına malikdirlər və bu ehtiyatlar onlara bugünkü durğunluq vəziyyətində yaşamağa köməklik edirlər. Ən böyük narahatlıq Azərbaycanın neft amili ilə bağlıdır, baxmayaraq ki, beynəlxalq və yerli təşkilatlar "qara qızılın" bəlaya yox, rifaha xidmət etməsi üçün öz səylərini göstərirlər.